Məzunlarımızın nəzərinə!

Lənkəran Dövlət Universitetinin və Dövlət Məşğulluq Agentliyinin Lənkəran-Astara Regional Məşğulluq filialının birgə təşkilatçılığı ilə Lənkəran rayonu, Lənkəran Olimpiya İdman Kompleksində 26 may 2023-cü il tarixdə **saat 11.00-da** Əmək yarmarkası keçiriləcək.

Tədbirdə Lənkəran-Astara iqtisadi rayonu üzrə 30 müəssisə tərəfindən 903-dən artıq vakansiyanın Əmək yarmarkasına çıxarılması nəzərdə tutulmuşdur. Əmək yarmarkasına gələn namizədlərin şəxsiyyət vəsiqələrini təqdim etmələri mütləqdir. Namizədlərin CV nümunəsi ilə birlikdə gəlməsi arzuolunandır. Əgər CV –niz yoxdursa, Dövlət Məşğulluq Agentliyi tərəfindən istifadəyə verilən CV Yarat platformasından (www.cvyarat.az) yararlana bilərsiniz. Bu platformada qeydiyyatdan keçməklə lazımi xanalara məlumatlarınızı əlavə edib, qısa müddətdə öz CV-nizi PDF formatında əldə etmək mümkündür.

Vakansiyalar, iş öhdəlikləri və şərtlər haqqında daha ətraflı məlumat Əmək yarmarkasında iştirak edən şəxslərə təqdim olunacaqdır.

Yarmarkaya Lənkəran Dövlət Universitetinin məzunlarını və son kurs tələbələrini dəvət edirik.

Ünvan və tarix:

Lənkəran rayonu, Sutəmurdov kəndi, Lənkəran Olimpiya İdman Kompleksi, 26 may 2023-cü il, saat 11.00.